# MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT

**UOT: 5704.01**

## NİZAMİ “XƏMSƏ”Sİ MUSİQİMİZİN UCALIQ ZİRVƏSİ QARA QARAYEVİN YARADICILIĞINDA

**Yeganə İsmayılova**
**Filologiya elmləri doktoru, professor**
**Baki Dövlət Universiteti**
**Bakı, Azərbaycan**
**E-mail: yegane-n@mail.ru**
**Orcid: 000-0003-3836-2229**

**Xülasə**

Q.Qarayev musiqimizin elə bir ucalıq zirvəsidir ki, ziyası illəri, qərinələri, əsrləri adlayır, gələcək nəsillərin də yollarına nur səpələyir. Milli iftixarımız olan görkəmli musiqiçi və ictimai xadim Qara Qarayev zəmanəmizin elə dahi bəstəkarlarından, parlaq simalarındandır ki, onun istedad və sənətkarlıq xüsusiyyətləri müasir dünya musiqi sənətinin inkişaf yollarını müəyyənləşdirir. O, Azərbaycan musiqisini elə inkişaf mərhələsinə yüksəltmişdir ki, milli gerçəklik hüdudlarından çox-çox kənara çıxa bilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr Sərəncamı ilə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq Artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin anadan olmasının 100 illik yubileyi qeyd olunur. TÜRKSOY-un qərarı ilə 2018-ci il Qara Qarayev ili elan olunub. Artıq bu çərçivədə böyük işlər görülməkdədir. 2018-ci il fevralın 14-də Ankarada, TÜRKSOY-un iqamətgahında “Qara Qarayev ili”nin açılış mərasimi keçirilmişdir. XX əsr musiqi mədəniyyətimizin ən görkəmli nümayəndələrindən biri olan Qara Qarayev Azərbaycan mədəniyyətinə dünya şöhrəti gətirən musiqi xadimlərimizdən biridir. O, zəngin yaradıcılığı və möhtəşəm sənət dünyası ilə bəşəriyyətin diqqət mərkəzində dayanmış şəxsiyyətlərdəndir. Böyük Ü.Hacıbəyovdan dərs almış dünya şöhrətli bəstəkarın əsərləri dünya mədəniyyətinin incilərindən sayılır.

**Açar sözlər:** Azərbaycan, TÜRKSOY, Qara Qarayev, Nizami Gəncəvi, “Xəmsə”, bəstəkar

## NIZAMI’S "KHAMSA" IN THE CREATION OF GARA GARAYEV

**Yegana Ismailova**
**Doctor of Philology, Professor**
**Baku State University**
**Baku, Azerbaijan**

**Summary**

G. Garayev is a great Azerbaijani composer, whose beautiful works live and delight generations. Gara Garayev is an outstanding musician, public figure, national pride of Azerbaijan, one of the brilliant composers and bright figures of our time, whose talent and creation determine the development ways of modern world musical culture. He raised Azerbaijani music to such a level of developing, that it was able to go far beyond the national reality. By the Decree of the President of the Azerbaijan Republic which dated October 17, 2017, the 100th anniversary of the birth of an outstanding representative of Azerbaijani culture, great composer, famous scientist-teacher and public figure, People's Artist of the USSR, Hero of Socialist Labor, laureate of the State Prizes of the USSR and Azerbaijan, academician Gara Garayev was celebrated. By the decision of TURKSOY, 2018 was declared the Year of Gara Garayev. The opening ceremony of the "Year of Gara Garayev" was held at the TURKSOY residence in Ankara,on February 14, in 2018, . Gara Garayev is one of the most prominent representatives of the Azerbaijani musical culture of XX century, a musical figure, who brought world fame to the Azerbaijani musical culture. The rich and versatile work of the composer always arouses great interest and admiration. Gara Garayev's creative works, who

explored under the great U. Hajibeyov, have entered the treasury of world culture.
**Keywords**: Azerbaijan, TURKSOY, Gara Garayev, Nizami Ganjavi, Khamsa, composer.

## «ХАМСА» НИЗАМИ В ТВОРЧЕСТВА ГАРА ГАРАЕВА

**Егяна Исмаилова**
**Доктор филологических наук, профессор**
**Бакинский Государственный Университет**
**Баку, Азербайджан**

**Резюме**

Г. Гараев – великий азербайджанский композитор, чьи прекрасные произведения живут и радуют поколения. Гара Гараев - выдающийся музыкант, общественный деятель, национальная гордость Азербайджана, один из гениальных композиторов и ярких деятелей современности, талант и артистизм которого определяют пути развития современного мирового музыкального искусства. Он поднял азербайджанскую музыку на такую ступень развития, что она смогла выйти далеко за пределы национальной действительности. Указом Президента Азербайджанской Республики от 17 октября 2017 года отмечалось 100-летие со дня рождения выдающегося представителя азербайджанской культуры, великого композитора, известного учёного-педагога и общественного деятеля, Народного артиста СССР, Героя Социалистического Труда, лауреата Государственных премий СССР и Азербайджана, академика Гара Гараева. Решением ТЮРКСОЙ 2018 год был объявлен Годом Гара Гараева. 14 февраля 2018 года в резиденции ТЮРКСОЙ в Анкаре состоялась церемония открытия «года Гара Гараева». Гара Гараев - один из самых ярких представителей азербайджанской музыкальной культуры XX века, музыкальный деятель принесший мировую славу азербайджанской музыкальной культуре. Богатое разностороннее творчество композитора всегда вызывает огромный интерес и восхищение. Произведения Гара Гараева, учившегося у великого У.Гаджибекова, вошли в сокровищницу мировой культуры.
**Ключевые слова**: Азербайджан, ТЮРКСОЙ, Гара Гараев, Низами Гянджеви, «Хамса», композитор

**Aktuallıq.** Q.Qarayevin adı Azərbaycan xalqı üçün əbədi və əzizdir. Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada hər kəs bu dahi sənətkarın musiqi dühasının sehrinə düşməsin, onun “Yeddi gözəl”, “İldırımlı yollarla” baletlərindən, “Leyli və Məcnun” simfonik poemasından xəbərsiz olsun. Q.Qarayev öz əsərləri ilə daim sevilən və insanı düşündürən sənətkardır, çünki o, həmişə doğma torpaqdan qüdrət almış, muğam, aşıq musiqisi, xalq nəğmələri kimi milli musiqimizin saf çeşməsindən su içmişdir. Eyni zamanda Q.Qarayev bəşəri hörmət qazanmış sənətkardır. Çünki sənət yolunda yeni cığırlar açaraq, yalnız özünəməxsus üslub yaratmış bəstəkar təkcə öz xalqının deyil, həm də dünya musiqi tarixinin bütün dövrlərinin nailiyyətlərini mənimsəmiş, dünya musiqi mədəniyyəti xəzinəsini misilsiz əsərləri ilə zənginləşdirmişdir.

**Annotasiya.** Q.Qarayevin irsi son dərəcə geniş və zəngindir. Bunu onun müraciət etdiyi müxtəlif janr və rəngarəng mövzularda görmək olar. Demək olar ki, Q.Qarayev bütün janrlarda eyni coşqunluqla çalışmış, novatorluğu və bədii cəhətdən yüksək səviyyəsi ilə fərqlənən yeni əsərlər yaratmışdır. Bəstəkarın geniş şöhrət qazanmış və musiqi mədəniyyətimizin qızıl fonduna daxil olmuş baletləri, simfonik poeması, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqisi bunu bir daha təsdiq edir.

**Metod.** Müqayisəli-məntiqi, təsviri və qarşılaşdırma metodlarından istifadə edilmişdir.

**Giriş.** Q.Qarayev musiqimizin elə bir ucalıq zirvəsidir ki, ziyası illəri, qərinələri, əsrləri adlayır, gələcək nəsillərin də yollarına nur səpələyir. Milli iftixarımız olan görkəmli musiqiçi və ictimai xadim Qara Qarayev zəmanəmizin elə dahi bəstəkarlarından, parlaq simalarındandır ki, onun istedad və sənətkarlıq xüsusiyyətləri müasir dünya musiqi sənətinin inkişaf yollarını müəyyənləşdirir. O, Azərbaycan musiqisini elə inkişaf mərhələsinə yüksəltmişdir ki, milli gerçəklik hüdudlarından çox-çox kənara çıxa bilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr Sərəncamı ilə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ Xalq Artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Qarayevin anadan olmasının 100 illik yubileyi qeyd olunur. TÜRKSOY-un qərarı ilə 2018-ci il Qara Qarayev ili elan olunub. Artıq bu çərçivədə böyük işlər görülməkdədir. 2018-ci il fevralın 14-də Ankarada, TÜRKSOY-un iqamətgahında "Qara Qarayev ili"nin açılış mərasimi keçirilmişdir. Açılış mərasimində TÜRKSOY-un baş katibi professor Düsen Kaseinov, görkəmli bəstəkar, UNESCO-nun sülh artisti, Azərbaycan Respublikasının Xalq artisti, Bəstəkarlar İttifaqının sədri professor Firəngiz Əlizadə, Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi, professor Kərim Tahirov, Əməkdar İncəsənət Xadimi, Qazi Universitetinin müəllimi, professor Əflatun Nemətzadə və başqaları mərasimdə çıxış etmişdir. Düsen Kaseinov görkəmli bəstəkar Qara Qarayevin yaradıcılığından, onun dünya musiqisinə bəxş etdiyi töhfələrdən danışmışdır. O, "Qara Qarayev ili" çərçivəsində 2018-ci il ərzində TÜRKSOY-a daxil olan Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və digər türkdilli ölkələrdə də görkəmli sənətkarın yubileyi ilə bağlı silsilə tədbirlərin keçiriləcəyini söyləmişdir.

XX əsr musiqi mədəniyyətimizin ən görkəmli nümayəndələrindən biri olan Qara Qarayev Azərbaycan mədəniyyətinə dünya şöhrəti gətirən musiqi xadimlərimizdən biridir. O, zəngin yaradıcılığı və möhtəşəm sənət dünyası ilə bəşəriyyətin diqqət mərkəzində dayanmış şəxsiyyətlərdəndir. Böyük Ü.Hacıbəyovdan dərs almış dünya şöhrətli bəstəkarın əsərləri dünya mədəniyyətinin incilərindən sayılır.

Q.Qarayevin adı Azərbaycan xalqı üçün daimi və əzizdir. Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada hər bir kəs bu dahi sənətkarın musiqi dühasının sehrinə düşməsin, onun "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərindən, "Leyli və Məcnun" simfonik poemasından xəbərsiz olsun. Q.Qarayev öz əsərləri ilə daim sevilən və insanı düşündürən sənətkardır, çünki o, həmişə doğma torpaqdan qüdrət almış, muğam, aşıq musiqisi, xalq nəğmələri kimi milli musiqimizin saf çeşməsindən su içmişdir.

Eyni zamanda Q.Qarayev bəşəri hörmət qazanmış sənətkardır. Çünki sənət yolunda yeni cığırlar açaraq, yalnız özünəməxsus üslub yaratmış bəstəkar təkcə öz xalqının deyil, həm də dünya musiqi tarixinin bütün dövrlərinin nailiyyətlərini mənimsəmiş, dünya musiqi mədəniyyəti xəzinəsini misilsiz əsərləri ilə zənginləşdirmişdir.

Qudrətli bəstəkarın irsi son dərəcə geniş və zəngindir. Bunu onun müraciət etdiyi müxtəlif janr və rəngarəng mövzularda görmək olar. Demək olar ki, Q.Qarayev bütün janrlarda eyni coşqunluqla çalışmış, novatorluğu və bədii cəhətdən yüksək səviyyəsi ilə fərqlənən yeni əsərlər yaratmışdır. Bəstəkarın geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfonik poeması, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqisi bunu bir daha təsdiq edir.

Bəstəkarın yaradıcılığı mövzu cəhətdən də çox zəngin və rəngarəng olmuşdur. Onu ən müxtəlif dövrün şair və yazıçılarının yaradıcılığı, xalq əfsanələri cəlb edirdi. Bura N.Gəncəvi, V.Şekspir, A.Puşkin, İ.Servantes, Ö.Xəyyam kimi dahi korifeylərin adları daxildir. İstər klassik Şərq, istər müasir məişət və istərsə də bir sıra dünya xalqlarının mövzularından bəstəkar eyni ilhamla və məharətlə istifadə edərək onları özünün təkrarolunmaz musiqisi ilə ölməzlik zirvəsinə qaldırmışdır.

Q.Qarayevin ən vacib mövzulara, kəskin həyati konfliktlərə həsr olunan yüksək idealları, insan mənəviyyatının zənginliyini və gözəlliyini tərənnüm edən baletləri həqiqi insanpərvərlik ruhu ilə doludur. İncə, lirik hisslərlə yazıb-yaradan sənətkar heyranedici ustalıqla öz qəhrəmanlarının daxili aləminə nüfuz edir. Bəstəkarın baletləri Azərbaycan balet sənətinin inkişafında əhəmiyyətli və keyfiyyət etibarı ilə yeni bir mərhələ sayılır. Sənətkar öz əsərlərində rəqslərin əyləndirici ünsürlərə malik olması təsəvvürlərinə tamamilə üstün gəlmiş, realist musiqili — xoreoqrafik dram yaratmışdır.

Q.Qarayev "Yeddi gözəl" baletində klassik irsə müraciət etmişdir. O, keçmiş və qədim bir əfsanə vasitəsi ilə öz xalqının gözəl mənəvi xüsusiyyətlərini və azad surətdə sevib-sevilmək arzularını tərənnüm etmişsə, "İldırımlı yollarla" baletində müasir dövrün olduqca mühüm bir

mövzüsunu - irqi ayrı-seçkilik və müstəmləkə xalqlarının azadlıq uğrunda mübarizə mövzusunu təcəssüm etdirmişdir.

1947-ci ildə dahi Azərbaycan şairi Nizaminin əsərləri əsasında yazdığı və elə həmin ildə SSRİ Dövlət mükafatına layiq görülmüş “Leyli və Məcnun" simfonik poeması Qara Qarayevə böyük şöhrət qazandırdı. Nizaminin insana sonsuz məhəbbətlə dolu fəlsəfi poeziyası Qara Qarayev üçün elə bir həqiqi ədəbi zəmin oldu ki, bəstəkar özünün ciddi səyi və axtarışları nəticəsində, eləcə də musiqili teatrın imkanları daxilində onu konkret tələblərə uyğunlaşdırılmış, bitkin kompozisiyalı dolğun balet əsəri yaratmışdır. Orta əsr ehkamlarına, adət-ənənələrinə qarşı qoyulmuş əbədi məhəbbət mövzusu ümumiləşmiş psixoloji ruhlu musiqidə açılır. Qəhrəmanların narahat qəlb çırpıntıları, hisslərinin gərginliyi və zərif-ülvi duyğuları poemada xoşbəxtlik haqqında arzuların üzərinə kabus kimi yayılmış qaranlıq mühitin rəmzi olan taleyin amansızlığı ilə qarşı-qarşıya qoyulmuşdur. Bu simfonik poema Qara Qarayev yaradıcılığının birinci onilliyində toplanmış bütün gözəl keyfiyyətləri özündə cəmləşdirir. Burada bəstəkar dinləyiciləri ziddiyyətli, keşməkəşli düşüncələr aləminə aparır: dərin, düşündürücü, üsyankar və barışmaz fikirlərini özünün son dərəcə parlaq, ecazkar musiqi lövhələri ilə canlandırır.

Yeni bir can verdin “Leyli-Məcnuna”a
Ərsəyə gətirdin “Yeddi gözəl”i.
İstedad böyüklük verir inana,
Əlinin üstündə Tanrının əli. (M.Qacar)

“Leyli və Məcnun" azad məhəbbəti məhv və inkar edən feodal-patriarxal dünyasının antihumanist təbiətinə qarşı sənətkarın etiraz səsinə, himninə çevrilir. Poemanın məğzində qarşılaşdırılan əsas qütblərin - xeyirlə şərin, qəddarlıqla insansevərliyin, köhnəliklə yeniliyin mübarizəsi sonralar yazdığı, dünya şöhrətli hər iki məşhur baletində, “Vyetnam" süitasında, “Don Kixot” simfonik qravürlərində, üçüncü simfoniyasında da özünün parlaq təcəssümünü tapır.

Çox keçmədən Qara Qarayev yenidən dahi Nizami Gəncəvi yaradıcılığına müraciət edir. Bu dəfə yalnız bir poema deyil, məşhur “Xəmsə”dəki bütün poemalar librettonun ədəbi əsasını təşkil edir. Nizami süjetlərinin motivlərindən sərbəst istifadə olunmuş bu baletə yeni personajlar gətirilmişdir. Baletin əsas qəhrəmanı xalqdır. Zülmə, əsarətə qarşı mübarizə aparan əməkçi xalqın həyatı əsərdə dolğun boyalarla verilmişdir. Öz əxlaqi ideallarına, ideyalarına xəyanət eləməyən gənc Ayişənin obrazında onun səadətə şiddətli meyli ifadə olunur. Aşıb-daşan melodiyaların sərbəst axını həm rəhmsizlik və istibdad üzərində, həm də parıltılı, ağılaparan əyləncələrin, başgicəlləndirən mühitin amansızlığı üzərində qələbə çalaraq, gözəl hisslər doğurur. Bir anlığa “Yeddi gözəl” baletini dinləyək. Bu baletin mayasında, musiqi toxumasında çırpınan “çahargah” qanadlarına, pərdələrinə diqqət yetirək. “Çahargah”ın baletə qonmuş hamımıza məlum xalları sanki yeni qüdrət, yeni əzəmət, yeni bir ahənglə səslənir.

Bu baletdəki yeddi gözəlin rəqslərinə baxanda adama elə gəlir ki, yeddi müxtəlif xalq ruhunun ifaçısı olan bu gözəllər rəqs edərkən, bir-birinə bənzəməyən müxtəlif dillərdə danışırlar. Sənətin bu möcüzəsi haqqında yazmaq nə qədər asan olsa da, onu mis tellərin, incə tar-kaman simlərinin, nəfəslərin, zərblərin dilində yaratmaq, nota köçürmək, sonra da onu səslərə çevirmək bir o qədər çətindir. Qara Qarayevin musiqi dili ilə dediyi lakonik, tutumlu fikirləri duymaq, dərindən dərk etmək üçün həm müasir dünya musiqi mədəniyyətinə, həm də bəstəkarın yaradıcılığına yaxından bələd olmaq lazımdır. Müasirləri onun haqqında yazırdı ki, Qara Qarayev təbiəti etibarı ilə zəngin və mürəkkəb adam idi: o, yaradıcılıqda da beləydi, həyatda da. Ciddilik hələ gənclik illərindən onun fərqləndirici cəhətlərindən idi. Hər işə münasibətdə, məşğələlərdə, maraq göstərdiyi sahələrdə, dost tapmaqda, oxumaq üçün kitab seçməkdə, fikir və düşüncələrində də beləydi...

Bəstəkarın musiqili səhnə əsərləri içərisində onun C.Hacıyevlə birlikdə yazdığı və milli opera sənətini zənginləşdirən “Vətən” operasını da xüsusi qeyd etmək lazımdır. Böyük vətənpərvərlik ruhu ilə yazılmış “Vətən” operası öz ideyası ilə bu günlərlə səsləşərək, vətənpərvərliyi tərənnüm edir, Azərbaycan gənclərinə vətənə böyük sədaqət hisslərini aşılayır.

Heç təsadüfi deyil ki, 28 yaşlı sənətkar bu operaya görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan simfonik və kamera-instrumental musiqisinin inkişafında ən mühüm səhifələrdən biri Q.Qarayevin adı ilə bağlıdır. Onun bu janrda yazdığı əsərləri bütün dünyanı gəzərək ən müxtəlif ölkələrin simfonik orkestrləri tərəfindən ifa olunur. İllər boyu simfonik musiqinin müxtəlif janrları üzərində işləyən Q.Qarayev mühüm yaradıcılıq prinsiplərinə daim sadiq qalmışdır. Bəstəkar, simfoniya, poema və süitalarında muğamlardan, xalq mahnı və rəqslərindən, aşıq yaradıcılığından ustalıqla yararlanmışdır. Bununla yanaşı, rus, türk, ispan və başqa xalqların musiqisnin bir sıra xüsusiyyətlərindən istifadə etmişdir.

Bəstəkarın bütün yaradıcılığı boyu müraciət etdiyi və yalnız doğma xalqının poetik folklorunu deyil, həmçinin digər xalqların da lirik şeirlərini əhatə etdiyi vokal əsərləri onun yaradıcılıq qüdrəti və əzəmətini çox gözəl təcəssüm etdirir. Bəstəkarın romansları, mahnıları bu janrda yazılmış ən gözəl sənət nümunələridir.

Kinonu öz xarakteri etibarı ilə "böyük müasir bəstəkarlıq məktəbi" adlandıran Q.Qarayev, kino musiqisi üzərində də çox məhsuldar işləmiş, klassikaya çevrilən əsl sənətkarlıq nümunələri yaratmışdır. "Leyli və Məcnun", "Tarixin ibrət dərsi", "Uzaq sahillərdə", "Bir məhəlləli iki oğlan" və s. kinofilmlərə, "Nikbin faciə", V.Şekspirin "Antonio və Kleopatra" dram tamaşalarına yazdığı musiqi onun yaradıcılığının parlaq səhifələrini təşkil edir.

Qara Qarayev 45 illik yaradıcılıq dövründə bütün musiqi janrlarında bir-birinin ardınca uğurlu hadisəyə çevrilmiş əsərlər yazmışdır. Onun yaradıcılıq xəritəsi son dərəcə çoxcəhətli və özünəməxsusluğu ilə səciyyələnir. Unudulmaz bəstəkarımızın musiqisindəki mövzu, süjet və motivlərin bu qədər müxtəlifliyi, rəngarəngliyi bir sənətkar kimi onun yaradıcılığının fərdi keyfiyyətləri ilə izah olunur. Onun əsərlərində orta əsr personajları bu günün qəhrəmanları ilə yanaşı durur, müasirliklə üzvi vəhdətdə təsvir olunur. Məhz bu baxımdan, Qara Qarayev eyni sənətkarlıq məharəti ilə Nizaminin, Şekspirin, Servantesin, Rostanın, Səməd Vurğunun, Vsevolod Vişnevskinin qəhrəmanlarını inandırıcı, səmimi ifadə vasitələrinin köməyi ilə tamaşaçı və dinləyicilərinə sevdirə bilmişdir.

Fortepiano üçün "Sarskoye selo heykəli", "Matəm prelüdü", "Üçsəsli fuqa", "Sonatina", "Azərbaycan rapsodiyası", "Fortepiano və simfonik orkestr üçün konsert", "Sevinc poeması", fortepiano və səs üçün "Altı Azərbaycan xalq mahnısı işləməsi", "Ordenli Azərbaycan" sənədli filminə musiqili xor, simfonik orkestr kollektivi üçün "Ürək mahnısı" kantatası, simfonik orkestr üçün "Üç təsnif", simli kvartet üçün fuqa, xor üçün "Beşik nəğməsi"... Bu əsərlər bəstəkarın məharətli müşahidəçilik bacarığını, xalq yaradıcılığına, müasirliyə, məzmun və forma ahəngdarlığına nümunədir.

Üzeyir Hacıbəyov sənət aləminə yenicə qədəm qoyanlarda xalq musiqisinə də dərin məhəbbət aşılayırdı. Üzeyir Hacıbəyovla tanışlığı Q.Qarayevin yaradıcılıq inkişafının istiqamətini həmişəlik müəyyənləşdirdi. Həmin illərdə Qara Qarayev, Cevdət Hacıyev və Tofiq Quliyev kimi indi adları dillər əzbəri olan Azərbaycan bəstəkarları Azərbaycan Dövlət Konservatoriyasında oxuyur, Leopold Martseyeviç Rudolfdan polifoniya xəzinəsinin, bəstəkarlıq texnikasının sirlərini öyrənirdilər. Onların üçü də milli iftixarımız, unudulmaz Üzeyir Hacıbəyovun təkidi ilə Moskva Dövlət Konservatoriyasına daxil oldu.

Burada Qara Qarayevin "vokal sənətinin müstəsna ustası, Azərbaycan musiqi folklorunun böyük bilicisi" adlandırdığı Bülbülün əvəzsiz rolu olmuşdur. Beləliklə, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin bir sənətkar kimi püxtələşməsində nəinki Üzeyir Hacıbəyov, Bülbül, eləcə də xalq musiqi ifaçılarının, ustad aşıqlarımızın böyük rolu olmuşdur. Qara Qarayev əbəs yerə deməmişdir ki, "Bəxtim onda gətirmişdi ki, mən... Üzeyir Hacıbəyovun sinfində oxumuşdum. Öz yetirmələrinin hər birinə xüsusi həssaslıqla yanaşmağı gözəl bacaran bu istedadlı pedaqoq, mahir psixoloq, böyük insanın sinfində bizlərdən çoxumuz ürəyə yatan lirik xalq mahnılarının, muğamın cilalanmış quruluşu arxasında aydın bir sistem, estetik bir qayda-qanunla bərabər, məntiqi bir ardıcıllığın, nizamın olduğunu öyrənmişik. Elə o zamanlar Üzeyir Hacıbəyovun yaradıcılıq təcrübəsi, müəllimimizin dərin və müdrik fikirlərinin təsiri ilə milli bəstəkarlıq məktəbinin qaynağı kimi folklorun tükənməz imkanlarının hüdudsuzluğu xüsusi bir qüvvə ilə qarşımızda açıldı".

Bəstəkarın yaradıcılıq fəaliyyətinin formalaşmasında onun Moskva Konservatoriyasında, xüsusilə Dmitri Şostakoviçin sinfində təhsil illərinin müstəsna əhəmiyyəti olub. Qara Qarayev o vaxt yazırdı: "Mənim bədii ideallarımın müəyyənləşməsi onun adı ilə bağlıdır. Böyük ustadın şəxsiyyətindəki məftunedici, özünəməxsus insani və bədii "cazibəsi" məni tezliklə, lap tezliklə, əgər belə demək mümkünsə, dəyişdirdi... Bir cəhət qəti surətdə rədd edilirdi: dərin fikirdən məhrum, zəif əsərlər quraşdırmaq, şablonçuluq, başqalarının musiqi zövqünə uyğunlaşmaq və təqlidçilik! Bir cəhət isə xüsusilə aşılanırdı: vətəndaşlıq hissi, özünlə "ümuminin" ayrılmazlığı, üzvi vəhdəti!.."

Moskva təhsilini müvəffəqiyyətlə başa vuran Qara Qarayevin həyat baxışında və ümumiyyətlə, dünyagörüşündə dəyişiklik, bəstəkarlıq texnikasına mükəmməl bələd olması tezliklə üzə çıxdı. Onun hələ təhsil illərində yazdığı birinci və ikinci simfoniyaları, Cövdət Hacıyevlə birgə yazdığı "Vətən" operası, fortepiano üçün sonatinası və başqa əsərləri Üzeyir Hacıbəyovun Qara Qarayevə verdiyi yüksək qiyməti bir daha təsdiqlədi. Hələ o illərdə Qara Qarayev sovet musiqi mədəniyyətinə böyük imkanlara malik, yetkin bir istedadın gəlişindən xəbər verirdi. Otuzuncu illərdə onun estetik aləmi daha da zənginləşir, bədii maraq dairəsi genişlənir, bəstəkarda bənzərsiz, özünəməxsus üslubi cəhətlər formalaşır. Öz sənətinə ciddi yanaşan, yaradıcılıq prosesinə fəal müdaxilə edən, onun hər cür əzabına, çətinliyinə qatlaşan, çəkdiyi zəhmətdən heç vaxt tam mənası ilə razı qalmayan sənətkar özünə tələbkarlığı ilə adamı heyrətə salırdı. Onun bu enerjisinə, işgüzarlıq və ehtirasla, yorulmaq bilmədən işləməsinə hamı həsəd aparır, qibtə edirdi.

Qara Qarayev ikinci simfoniyasını 1946-cı ildə konservatoriyada oxuyarkən tamamladı. Simfoniyadakı aydın musiqi dili, orijinal yaradıcılıq axtarışları, sənət incilərinə xas olan əlvan boyalar bəstəkarın gələcək əsərlərinin müvəffəqiyyəti barədə çox şey vəd edirdi.

Qara Qarayev Bakıya yetkin sənətkar kimi qayıtdı. Üslubunun durmadan, fasiləsiz inkişafını təmin edən və vətəndaşlıq qayəsi, «özü" ilə "ümumi" arasında qırılmaz əlaqə, üzvi vəhdət bəstəkarın əsas yaradıcılıq prinsipinə çevrildi. Qırxıncı illərdə onun yaratdığı aşıqvari-pastoral musiqisinin obraz-intonasiya quruluşunda, təbiəti etibarı ilə motsartvari kompozisiyasında həyatın müxtəlif cəhətlərinin ahəngdar təcəssümü aydın eşidilir. Daha sonralar Puşkinin sözlərinə yazdığı "Mən sizi sevirdim" və "Gürcüstan təpələrində" adlı romanslarının musiqisində isə lirik obrazlılığının digər yeni cəhətləri özünü göstərir.

Qara Qarayev daim axtarış sorağında olan, uca zirvələrə baş alıb gedən: təzə, keçilməmiş yollarla irəliləyən bəəstəkar idi. Hər yeni əsərində yeni fikirlər vardır. Yenilik meyli onun yaradıcılığının ilk illərindən başlamışdı. 1930-cu illərdə - gəncliyində yazdığı "Sarskoye selo heykəli" adlı fortepiano pyesindən başlayaraq... O, yenilik ruhu ilə yoğrulmuş əsərlərini yazarkən, hər cür yeniliklər- gələcəkdən xəbər verən yeniliklər haqqında, ən başlıcası isə, yeni cəmiyyət, yeni insan barədə öz fikrini bəstəkar yalnız yeni forma, yeni intonasiya və ya yeni boyalarla ifadə edirdi.

**Nəticə.** Q.Qarayev istedadlı publisist kimi özünün musiqi-estetik görüşlərini də son dərəcə inandırıcı və sadə şəkildə ifadə edib. Müasir bəstəkarlıq yaradıcılığı üslubundakı tipik və xarakterik cəhətləri elmi dəlillərə əsaslanır. Bəstəkarın tutarlı fikirləri və uzaqgörənliyi, həmçinin Azərbaycan musiqisinə həsr olunmuş məruzə və məqalələrində də öz əksini tapmışdır. Q.Qarayev yaradıcı kadrların tərbiyəsinə böyük əmək sərf etmişdir. 1946-cı ildən etibarən Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq sinfini aparan Q.Qarayev onlarca bəstəkar yetişdirmiş, bütöv bir musiqi-yaradıcılıq məktəbi yaratmışdır. Arif Məlikov,Vasif Adıgözəlov, Adil Bəbirov və başqaları onun ənənələrini davam etdirmişlər.

İllər keçəcək, qərinələr dolanacaq, dahi Azərbaycan bəstəkarı Q.Qarayev musiqisinin zəngin xəzinəsi insanların ilham mənbəyi olaraq qalacaqdır. Onun özünə qarşı sonsuz tələbkarlığından doğan və bizə qoyub getdiyi irs dərinliyi və zənginliyinə görə tükənməzdir. Bizdən sonra gələcək nəsillər bu tükənməz xəzinədə özləri üçün hər dəfə yeni-yeni tapıntılar kəşf edəcəklər.

## Ədəbiyyat

1. Q.Qarayevin 100 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr Sərəncamı.
2. Qara Qarayevin anadan olmasının 100 illiyi təntənəli şəkildə qeyd edilib. https://culture.gov.az/az/umumi-xeberler/qara-qarayevin-anadan-olmasinin-100-illiyi-tenteneli-sekilde-qeyd-edilib
3. Qara Qarayevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib./ **https://www.xalqcebhesi.az/news/culture/26001.html**

Rəyçi: Türkiyə

Akademik Əflatun Nematzadə